

Kənan Hacı

*“Dünyanın damı” romanı Azərbaycan ədəbiyyatının unudulmuş simalarından olan Ağasəlim Fədainin həyatından bəhs edir. Ağasəlim Fədai XX əsrin əvvəllərində yaşayıb-yaradıb. Qısa ömürdə son dərəcə məhsuldar yaradıcılıq yolu keçib, eyni zamanda Azərbaycan Opera teatrında Məcnun, Kərəm və digər rolları yaradıb. Onun ecazkar səsi Hüseynqulu Sarabskinin diqqətini cəlb edib, ustad sənətkar onu Opera Teatrına dəvət edib. Ağasəlim Fədai ictimai xadim kimi də fəaliyyət göstərib. 37-ci il dalğası ağır sınaqlara çəkib. Şair həbs olunmaq təhlükəsini hiss edərək doğma vətənini tərk edib Türkəmistana üz tutub. Yolda son dərəcə qiymətli əlyazmalarını itirən şair böyük sarsıntı keçirir. Xəstəlik, vətən həsrəti onun bütün gücünü, qüvvəsini alır. On illik acı qürbət həyatından sonra yarımcan vəziyyətdə vətənə qayıdan Ağasəlim Fədai az sonra Bakıda vəfat edir. Bu əsəri onun əziz xatirəsinə həsr edirəm.*

**Dəhr bazarında sevdayi-qəmi eşq içrə kim**
**İftixar ilə verib əldən mənimtək parəsin?**
*Ağasəlim Fədai*

# Dünyanın damı

## Romandan bir hissə

**(əvvəli ötən sayımızda)**

***Xəcalət janrında susdular. Ağasəlim bu görkəmindən, Vahidgil isə onu axtarmadıqları üçün sıxıldı.***

***Çay süfrəsi arxasında şirin söhbət gedirdi. Bu şirinliyə Ağasəlimin xəstə halı azacıq xələl gətirirdi. Birdən xəstə şair yerindən dikəldi, gözləri alacalandı:***

***-Bilirsüz ki, ya bu üzdə olan şairlərin çoxu şeirlərini məndən oğurlayıb? Mənim şeirlərimlə məşhurlaşıblar.***

***Səyyar maraq hissiylə soruşdu:***

***-Hansı şairlər, ay Ağasəlim? Kimdir sənin şeirlərini oğurlayanlar?***

***-Bu üzdə olan şairlər var aa, hamısı.***

-Ağasəlim, ağ eləmə də, - Vahid ərklə köhnə dostuna etiraz etdi. – Bu yazığlar sənin şeirlərini harda gördülər ki, oğurlasınlar? Mətbuatda çap elətdirdiklərini oxumuşuq, çox əla şeirlərdir. Onlar da harda oxunubsa, sənin adın çəkilib. Belə şey ola bilməz. Olsa, mən özüm onları ifşa eləyərəm.

Ağasəlim dərin fikrə getdi, baxışlarını naməlum nöqtəyə zilləyib susdu. Vahidlə Səyyar baxışdılar, bu baxışlar onu deyirdi ki, deyəsən, Ağasəlimin ruh halı yerində deyil.

-Bir rəvayət yazmışdım. Bu hadisəyə Aşqabadda rast gəlmişəm. Küçəylə gedirdim, gördüm uşaqlar göyərçinləri daşlayırlar. Qəfildən bir arvad cumdu uşaqların üstünə, qışqırmağa başladı. “Mənim oğlum ölüüüb!!! Mənim oğlum ölüüüb!!!” deyə elə hey çığırırdı. Əvvəlcə heç nə başa düşmədim. Quşlarla onun oğlunun nə əlaqəsi? Uşaqlar da təəccüblə arvada baxırdılar. Sonra öyrəndim ki, sən demə, arvada deyiblər ki, sənin oğlun öləndən sonra göyərçinə çevrilib. Uşaqlardan biri qadına elə bir sual verdi ki, yerimdəcə quruyub qaldım. “Xala, bəlkə sənin oğlunun ruhunu oğurlayıblar?” Yazıq arvad ağlamsındı, pişik miyoltusuna bənzər səs çıxartdı. Ağlıma dəhşətli fikir gədli, bu arvad pişiyə çevrilib göyərçinə çevrilmiş oğlunu tutub yeyəcək.

İşığın kölgələri sanki dənizin sahilini süpürməkdəydi. Qaranlıqdan eşidilən aramsız uğultu Ağasəlimin danışdığı qəribə hadisənin mistik aurasını bir az da dərinləşdirdi.

Qızıl ovxağını xatırladan qum üstündə diz vurub dövrə ilə oturan bir-iki cavanın səs-küyü onları fikirdən ayırdı.

-Vaygirlik olmayacaq ha! – cavanlardan biri ucudan səsləndi.

Bu, o demək idi ki, meyxana deyiləndən sonra axırıncı iki misrası təkrar olunmayacaq, meyxana qoşa misra ilə deyiləcək.

Nuru dilləndi:

-Cavan uşaqlardu, hər gecə burda yığışıb meyxana deyirlər.

Vahid başını buladı:

-Alə, gənə meyxana? Canımızı gücnən qurtarmışıq.

Məclisin şirin yerində iki nəfər cavanlara yaxınlaşdı, oturanları az qala, bikef edəcəkdilər. Biri azərbaycanlı, biri rus idi. Çimərlik geyimində otuz-otuz beş yaşlarında sağlam bədənli adamlardı. Açıq-aydın hiss olunurdu ki, keflidirlər. Meyxana kəsildi, hamı dilxor oldu. Azərbaycanlı salamsız-kəlamsız ədayla soruşdu:

***-O qayıq kimindir?***

***Qayığı indi görürmüş kimi hamı o səmtə döndü. Yarıyacan quruya dartılmış qayıqda sarışın bir qadın oturmuşdu, o da çimərlik geyimində idi. Meyxana deyənlərdən biri dedi:***

Gecənin bu vaxtı qayıqla dənizə çıxmaq olar?

Oturanlardan biri astadan dilləndi:

-Alə, özü də bu pyandu e, qayıq çörülər, batar, zırının biridü, çıxarmaq da olmaz. Oturduğumuz yerdə işə düşərik.

***Deyəsən deyilənlər ədəbazın xoşuna gəlmədi:***

***-Sən nə danışırsan? Bu, podpolkovnikdir, özü də Moskvadan gəlib. Sən ondan yaxşı qanırsan ki, qayıq nədir, necə idarə edərlər?***

***Meyxanaçıların ən yaşlısı qan-qaraçılığın qarşısını almaq üçün araya girdi və tələsik təzə qafiyə açdı:***

***Rus qanır, yəni bu xalq anlamasın?***

***Qanan oldu, onu sağ anlamasın.***

***Qayıq istəyən elə bil yatmışdı, birdən ayıldı. Ancaq hələ özünə gəlməmiş kənardan ikinci bənd səsləndi:***

Fitnəni qandı, amma qanmadı ki,

Yanında özgə xoruz banlamasın.

Ədabaz gördü ki, bu xına o xınadan deyil. Matdımmatdım meyxana deyənlərə baxıb heç nə demədən geri döndülər. Uzaqdan rusun səsi eşidildi:

-O çem onu sporyat druq s druqom?

-Mənimdir, necə bəgəm?

-Bunlar Moskvadan gəliblər. Qayıqda üzüb kef eləmək istəyirlər, olar da... – Həmin adam bayağı ədayla dedi.

Qayığın yiyəsi özündən çıxdı:

-Sizin başuvuz xarabdu?

O, elə zənn eləmişdi ki, oturanlar nə barədəsə mübahisə edirlər. Cavanlar bir bənd deyib kənarda duran orta yaşlı adamı ilk dəfə idi görürdülər.

-Dayı, deyəsən sən də hal əhlisən, - qayığın sahibi bunu deyib gülümsədi.

Ağasəlim cibindən “Kazbek” çıxarıb odladı, birinci tüstüdə sinəsi qovuşdu, öskürək bədənini silkələdi. Özünə gələndə hələ də cavanların onu maraqla süzdüyünü gördü.

Şuri-eşqündü salan kuhi-biyabanə məni,
Ey edən zülfü ilə dəhrdə divanə məni.

***Fəxr edib hüsnünə tüğyan eləmə aləmdə,***
***İncidib zülm ilə salma qəmü pünhanə məni.***

***Qaşların qətlimə fərman verib hər ləhzə yenə,***
***əcəba, neyləmişəm mən, salısan qanə məni?***

***Yandırır aləmi, ey mah, cəmalın şövqü,***
***Eşqin, ey mah, yaxar atəşi-hicrana məni.***

***Qolların boynuma salsan, gözəlim, mən səndən***
***Ummaram, gər çəkəsən bir gecə bir yanə məni.***

***Rəhm qıl, qoymadı can məndə gözün şəhlası,***
***Basgilən bağrına cantək, gətir həm canə məni.***

***Aşiqəm, sanki Fədai, gülə bülbül kimi mən,***
***Nə olar, məhrəm elə qönçeyi-xəndanə məni.***

“Fədai” sözünü eşitcək cavanların dördü də yerindən dik atıldı.

-Fədai!

-Alə, bu, Ağasəlim Fədaidir ki!

Ağasəlim kədərlə gülümsündü:

-Mən əbabil yaşındayam. Unumu əbabil kimi göylərdə ələdim. Şirin yuxulardan çox gec ayıldım. Baxdım ki, ömür fənayə uğrayıb... Qanımla yazdığım şeirlərin sərxoşu kimi aylarımı, illərimi qürbət yellərinə verdim. Amma qürbətin mədəsində çətin həzm olunan tikəyə döndüm. Başımı götürüb gəldim vətənə. Ölməyə gəldim...

***Boğazında düyünlənən qəhər ona sözlərinin ardını gətirməyə imkan vermədi. Adamlar uzun illər boyu Ağasəlimin bədbəxtliyinin azarkeşi olmuşdular. Kütlə belə şeyləri sevir axı. Şairi ya tribunada, ya da dar ağacında görməyi xoşlayırlar. Ağasəlim nə tribunada idi, nə də dar ağacında...***

***-Bu vaxta qədər haralardaydın, şair? Sənin qəzəllərin daim məclislərdə oxundu, adın çəkiləndə gözlər səni axtardı, tapmadı...***

***-Mən həyatını bir çantaya yığıb yola çıxmağı bacaranlardanam, oğul...***



*İşığın kölgələri sanki dənizin sahilini süpürməkdəydi. Qaranlıqdan eşidilən aramsız uğultu Ağasəlimin danışdığı qəribə hadisənin mistik aurasını bir az da dərinləşdirdi. Qızıl ovxağını xatırladan qum üstündə diz vurub dövrə ilə oturan bir-iki cavanın səs-küyü onları fikirdən ayırdı. -Vaygirlik olmayacaq ha! – cavanlardan biri ucudan səsləndi. Bu, o demək idi ki, meyxana deyiləndən sonra axırıncı iki misrası təkrar olunmayacaq, meyxana qoşa misra ilə deyiləcək...*